# Gələn ilin büdcəsi iqtisadi islahatları daha da sürətləndirəcək

***❐ 2019 –cu ilin dövlət büdcəsini həm də iqtisadi islahatlar büdcəsi adlandırmaq olar. Büdcə zərfinə əlavə edilmiş sənədlər toplusunda növbəti ildə ölkənin vergi sistemində və digər sahələrdə əsaslı islahatların aparılması nəzərdə tutulub. Təbii ki, iş adamlarının və biznes aləminin maraqlarını yüksək səviyyədə təmin edəcək vergi islahatları ölkə iqtisadiyyatının real sektorunun inkişafında inqilabi dönüşün baş verməsinə, kölgə iqtisadiyyatının tam leqallaşdırılmasına hesablanıb.***



Hökumət biznesin və muzdla çalışanların vergi yükünü 30-35 faiz azaltmaqla, büdcə gəlirlərində müəyyən azalmalara yol versə də, əvəzində iqtisadiyyatın qeyri-neft sektorunun sürətli inkişafına, habelə kölgə iqtisadiyyatının leqallaşdırılacağına tam əmindir. O, bu yolla dövlətin xəzinəsinə daha ciddi daxilolmaların baş tutacağına inanır. Bir sözlə, haqqında danışdığımız islahatlar həm biznesə, həm biznesdə çalışan vətəndaşlarımıza, həm də hökumətə dividendlər gətirən bir islahatdır.

Məlum məsələdir ki, vergi dövlətin əlində təkcə büdcəyə vəsait yığmaq üçün bir vasitə deyil, həm də tənzimləyici alətdir. O, iqtisadiyyatı həm makro, həm də mikro səviyyədə nizamlayır. Ona görə də dövlət zəruri hallarda ölkə iqtisadiyyatının bir sahəsini, ayrıca götürülmüş müəssisə qruplarını və ya regionlar üzrə vergi yükünü dəyişmək imkanlarından istifadə edə bilər. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün belə təcrübədən dünyanın inkişaf etmiş ölkələri zaman-zaman istifadə ediblər. Yəni, biz də burada yeni heç nə kəşf etmirik.

O ki qaldı bu islahatların qeyri-leqal fəaliyyətin hansı hissəsini leqallaşdıra biləcəyinə, onu deyə bilərik ki, hər bir müəssisə, hər bir iş adamı, ilk növbədə, leqal fəaliyyət göstərməyə daha çox üstünlük verir. Onlar başa düşürlər ki, qeyri-leqal fəaliyyətin sonu yoxdur. Bu səbəbdən də vergi güzəştlərinin iş adamlarına və muzdla çalışan vətəndaşlarımıza yaradacağı imkanlardan onların düzgün faydalanacağı şübhəsizdir. Əslində islahatlar da buna hesablanıb. Güman edirik ki, vergi yükünün bu dərəcədə azaldılması vergitutma bazasının da kifayət qədər genişlənməsinə gətirib çıxaracaq.

Hazırda ölkə həyatının elə bir sahəsi yoxdur ki, o, islahatların əhatə dairəsindən kənarda qalsın. Azərbaycanda aparılan islahatlara sonuncu olaraq ən obyektiv qiyməti Dünya Bankının "Doing Business 2019" hesabatı verib. Ölkəmizin bu hesabatda bir il ərzində 35 pillə irəliləyərək 25-ci yerdə qərarlaşması, Azərbaycanın MDB ölkələri arasında lider mövqeyinə yüksəlməsi aparılan islahatların sürətinin və səmərəliliyinin hansı səviyyədə olmasından xəbər verir.




Noyabr ayının 30-da Azərbaycanın 2019-cu il üçün dövlət büdcəsi uzun müzakirələrdən sonra parlament tərəfindən qəbul edildi. Bir qədər öncə gələn ilin büdcəsi ilkin müzakirələr zamanı millət vəkilləri tərəfindən qaldırılan təkliflərin nəzərə alınması məqsədilə hökumətə qaytarılmışdı. Təkliflər nəzərə alınmaqla büdcənin dəqiqləşdirilmiş son variantı noyabrın 23-də Milli Məclisə göndərildi və təkrar müzakirələrdən sonra qəbul edildi. Büdcə layihəsində hansı təkliflər nəzərə alındı? Nəzərə alınmış təkliflər hesabına büdcənin gəlir və xərclərində nə kimi dəyişikliklər baş verdi?

Büdcənin parlamentə təqdim olunmuş ilkin variantında onun gəlirləri 22 milyard 917 milyon manat, xərcləri 24 milyard 780 milyon manat, kəsiri isə 1 milyard 863 milyon manat səviyyəsində müəyyən edilmişdi. Parlamentdə aparılan müzakirələr zamanı millət vəkillərinin səsləndirdiyi təkliflər kifayət qədər çox idi. Deputatlar təbii olaraq qaldırdıqları təkliflərin qəbul olunmasına çalışır və dəyişikliklərin zəruri olduğuna hökuməti inandırmaq üçün lazımi əsaslandırmalar sərgiləyirdilər. Bu, parlamentdə büdcə müzakirələri üçün normal haldır. Lakin bir həqiqət də var ki, büdcənin imkanları adətən onun parlament müzakirələri zamanı deputatlar tərəfindən səsləndirilən təkliflərin həcmi ilə uyğun gəlmir. Yəni, bir qayda olaraq millət vəkillərinin irəli sürdükləri təkliflərin maliyyə tutumu büdcənin xərclərinin maksimum artırılması imkanlarından dəfələrlə çox olur. Bu dəfə də istisna olmadı. Millət vəkillərinin səsləndirdiyi təkliflərin maliyyə tutumu 7 milyard manatdan çox oldu. Müzakirələrdən sonra təkliflərin zəruri hissəsini nəzərə almaq üçün büdcə hökumətə qaytarıldı və hökumət bir həftə ərzində bu təkliflərin ən zəruri hissəsini büdcə xərclərində nəzərə aldı.

Müzakirələr zamanı irəli sürülən təkliflərin nəzərə alınması nəticəsində hökumət parlamentə təqdim olunmuş ilkin büdcə layihəsində nəzərdə tutulmuş gəlirləri 251 milyon manat və ya 1,1 faiz , xərcləri 410 milyon manat və ya 1,7 faiz, kəsiri isə 159 milyon manat və ya 8,5 faiz artırdı. Bütövlükdə gələn ilin dövlət büdcəsinin gəlirləri 23 168 milyon manat, xərcləri 25 190 milyon manat, kəsiri isə 2 022 milyon manat təşkil etdi.

Büdcəyə əlavə 251 milyon manat gəlirlərin daxil olması əsasən Dövlət Gömrük Komitəsinin xətti ilə yığılan vergi və rüsumların artırılması hesabına baş tutacaq. Bu məbləğin 96,4 milyon manatı Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisinin, 55 milyon manatı malların idxalına görə aksizlərin, 99 milyon manatı isə gömrük rüsumlarının payına düşəcək. Ölkənin gömrük sistemində aparılan son islahatlar, rüşvət və korrupsiyaya qarşı ciddi mübarizə, bu sistemin fəaliyyətinin şəffaflaşdırılması sahəsindəki radikal addımlar, gömrük və vergi yığımı işində əsaslı dönüşə səbəb oldu. Bu isə, ilk növbədə, ölkə Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında aparılan uğurlu islahatların, rüşvət və korrupsiyaya qarşı barışmaz mübarizənin məntiqi nəticəsidir.



Burada dövlətimizin başçısının Nazirlər Kabinetinin cari ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında vergi və gömrük orqanlarında aparılan islahatlara münasibət bildirərkən səsləndirdiyi fikirləri xatırlamaq yerinə düşərdi: "Xüsusilə vergi və gömrük sistemində aparılan islahatlar böyük dəyişikliyə, müsbətə doğru dəyişikliklərə səbəb olur. İslahatlar davam etdirilməlidir. Bu gün sahibkarları, ictimaiyyəti narahat edən vergi və gömrük sahəsində işlərlə, məsələlərlə bağlı bütün lazımi addımlar atılmalıdır ki, bu xoşagəlməz hallara son qoyulsun. Gömrük orqanları bu il 800 milyon manatdan çox əlavə vəsait toplamışlar. Mən bunu yüksək qiymətləndirirəm. Əminəm ki, ilin sonuna qədər bu məbləğ daha da artacaq". Şübhəsiz, belə də olacaq. Növbəti ildə Dövlət Gömrük Komitəsinin xətti ilə büdcəyə daxilolmaların həcminin 1 milyard 258 milyon manat və ya 52,2 faiz artırılması nəzərdə tutulur.

Bəs gələn ilin büdcəsinin xərclər hissəsində nə kimi dəyişikliklər baş verdi? Hökumət müzakirələr zamanı millət vəkillərinin səsləndirdiyi hansı təklifləri nəzərə aldı? Büdcənin xərcləri cəmi 410 milyon manat artsa da bütövlükdə verilən təkliflərin maliyyə tutumu 610 milyon manat təşkil etdi. Bu sırada diqqət çəkən xərclər içərisində məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, onların mənzil şəraitinin yaxşılaşdırılması üçün 200 milyon manat vəsaitin ayrılması xüsusi qeyd edilməlidir. Vətəndaşlarımızın, xüsusilə də məcburi köçkünlərin sosial – məişət məsələlərinin həlli həmişə ölkə rəhbərliyinin diqqət mərkəzində olub. Artırılan xərclərin 1/3 hissəsinin bu məqsədə yönəldilməsi dediklərimizə əyani sübutdur.

Sosialyönümlü daha bir xərc – regionlarda məşğulluq səviyyəsinin artırılması məqsədilə 2019-cu il dövlət büdcəsindən əlavə olaraq 80 milyon manat vəsaitin ayrılması da təqdirəlayiq bir addımdır.

Artırılan büdcə xərcləri içərisində ölkədə islahatların həyata keçirilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə 256 milyon manat, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, suvarılan sahələrin artırılması və digər meliorativ tədbirlərin həyata keçirilməsi üçün kənd təsərrüfatı xərclərinə əlavə olaraq 40 milyon manat vəsaitin ayrılması da xüsusi qeyd olunmalıdır. 2019/2020-ci tədris ilindən başlayaraq dövlət sifarişi ilə ali təhsil alanların xüsusi çəkisinin təxminən 20 faiz artırılması üçün əlavə olaraq təhsil xərcləri 11 milyon manat artırıldı.

Gənclər Fondunun növbəti il üçün nəzərdə tutulmuş xərcləri əlavə olaraq 2,7 milyon manata qaldırıldı ki, bu da cari ilin büdcəsi ilə müqayisədə 4,4 dəfə çoxdur. Yeni doğulmuş eşitmə və ürək qüsuru olan uşaqların müalicəsi üçün səhiyyə xərcləri 4 milyon manat, Milli Elmlər Akademiyasının xərcləri 800 min manat artırıldı.

Gələn ilin büdcəsində neftin qiymətlərinin bir barel üçün 60 dollar götürülməsi heç də təsadüfi deyil. Belə ki, hökumət tərəfindən büdcənin son variantı işlənib hazırlanarkən dünya bazarlarında neftin qiymətləri kifayət qədər sabit idi. Beynəlxalq araşdırma mərkəzləri, müstəqil analitiklər İran neftinin ixracına qadağalar fonunda neftin qiymətlərinin bir barel üçün 100 dollara, hətta 120 dollara qədər artacağına dair proqnozlar verirdilər. Lakin siyasi amillərin vəziyyəti kəskin dəyişəcəyini nəzərə almaq həmişəki kimi bu dəfə də mümkün olmadı. Əslində bizim büdcədə neftin qiymətlərinin dəyişdirilməsi istənilən vaxt mümkündür. Zərurət yaranarsa büdcə sistemi haqqında qanuna uyğun olaraq onun yenidən parlamentə çıxarılması mümkündür. Başqa bir variant isə büdcə xərclərinin hökumət tərəfindən ixtisar edilməsi ola bilər. Hər iki hal o vaxt baş verə bilər ki, neftin qiymətləri bugünkü 1 barel üçün 60 dollar səviyyəsindən 30 faizdən çox aşağı düşsün. İndiki vəziyyətdə isə bunu etməyə elə bir lüzum yoxdur.

Bir sözlə, ciddi vergi islahatlarının nəzərdə tutulduğu növbəti ilin büdcəsi, heç şübhəsiz, ölkədə aparılan iqtisadi islahatların 2019-cu ildə daha sürətlə davam etdirilməsinə təkan verəcək. Bu da son nəticədə ümumi iqtisadiyyatda, xüsusilə də onun qeyri-neft sektorunda ciddi nəticələr əldə olunmasına əlverişli şərait yaradacaq.

***Fikrət YUSİFOV,***
***iqtisad elmləri doktoru, professor***